**Xəzər rayon Statistika Şöbəsi "Ümumdünya Statistika Günü" nə**

**həsr edilmiş tədbir keçirmişdir.**



16 oktyabr 2015-ci ildə Xəzər rayon Statistika Şöbəsinin təşəbbüsü ilə "Daha təkmil statistika-daha yaxşı həyat " devizi altında Ümümdünya Statistika Gününə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə Bakı şəhər Statistika Şöbəsinin rəis müavini Sədi Məmmədov, Xəzər rayon İcra Hakimiyyəti apparatının baş məsləhətçisi Rövşən Quliyev, kütləvi informasiya nümayəndələrindən "Açıq – aşkar" qəzetinin redaktoru Aydın Məmmədov, müəssisə və təşkilatların nümayəndələri iştirak etmişlər.



Giriş sözü ilə Xəzər rayon Statistika Şöbəsinin rəisi Təranə Babayeva iclası açıq elan etdi , tədbir iştirakçılarını salamladı və Dövlət Statistika Komitəsinin sədri cənab Tahir Budaqovu və onun simasında bütün kollektivi,o cümlədən Xəzər rayon Statistika şöbəsinin əməkdaşlarını təbrik etdi və fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı.

Şöbənin Həmkarlar komitəsinin sədrii Lalə Sadıqova çıxış edərək, 169 il ərzində Statistikanın keçdiyi yollardan , onun tarixindən yaranmasından və rəsmi Statistikanın 95 il ərzində hansı yollardan keçməsindən danışdı. Xəzər rayon Statistika şöbəsinin baş məsləhətçisi Nəzakət Mirzəyeva statistikanın sosial-iqtisadi siyasətin formalaşmasında rolu və rayonun sosial-iqtisadi inkişafı haqqında məlumat verdi. Pirallahı rayonunun sosial–iqtisadi vəziyyəti barədə baş məsləhətçisi Sevinc Şükürova çıxış etdi.



Statistika sahəsində əldə olunan nailiyyətlər dövlətin və hökumətin yüksək qayğısı sahəsində mümkün olmuşdur.

Bakı şəhər Statistika Şöbəsinin rəis müavini Sədi Məmmədov ,Xəzər rayon İcra Hakimiyyəti apparatının baş məsləhətçisi Rövşən Quliyev çıxış edərək ,Statistika işçilərini bayram münasibətilə təbrik etdilər.

Tədbirdə nümunəvi müəssisələdən bir neçəsi təşəkkür məktubu ilə təltif olundu.

Bütün çıxışlardan sonra Xəzər Rayon Statistika şöbəsinin rəis müavini Niyazi Abdullayev məruzə edərək, işçiləri bu gün münasibəti ilə təbrik etdi, gələn qonaqlara isə öz minnətdarlığını bildirdi.



